# Moldovada ulu öndərin anadan olmasının 96-cı ildönümü



**Cari ilin 10 may tarixində Azərbaycanın Moldovadakı Səfirliyində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Moldova İqtisadiyyat və İnfrastruktur naziri Kiril Qaburiç, Moldovadakı Azərbaycanlıların Konqres nümayəndələri, Moldovada təhsil alan tələbələr, ictimai xadimlər, yerli KİV nümayəndələri iştirak ediblər.**

Əvvəlcə tədbir iştirakçıları səfirliyin binasında ucaldılan ulu öndərin büstü önünə çiçəklər düzüb, ümummilli liderin xatirəsini dərin ehtiramla yad ediblər.

Tədbirdə çıxış edən səfir Qüdsi Osmanov müstəqil dövlətimizin qurucusu və memarı olan Heydər Əliyevin Azərbaycan tarixindəki rolu, həyata keçirdiyi islahatlar barədə iştirakçılara geniş məlumat verib. O qeyd edib ki, 1993-cü ildə xalqın çağırışı ilə yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra Heydər Əliyev getdikcə dərinləşən böhranın qarşısının alınmasına, ölkəmizin ağrılı problemlərinin aradan qaldırılmasına, Azərbaycan Dövlətinin qurulması və möhkəmlənməsinə nail olub. Diplomat onun layiqli davamçısı Prezident İlham Əliyevin apardığı uğurlu xarici və daxili siyasətə toxunub, bu siyasətin nəticəsində ölkəmizdə bütün sahələrdə müşahidə olunan inkişafdan bəhs edib.

Daha sonra çıxış edən Moldova İqtisadiyyat və İnfrastruktur naziri Kiril Qaburiç Azərbaycanda iş fəaliyyəti zamanı insanların Heydər Əliyev şəxsiyyətinə xüsusi ehtiram və dərin hörmətlə yanaşdığını xatırlayıb: “Heydər Əliyev Azərbaycan üçün əvəzsiz işlər görmüşdür və Azərbaycan xalqı onun xidmətlərini unutmur, daim yad edir. İnsanlar onunla bağlı xatirələrini böyük qürurla bölüşürlər”, - deyə nazir bildirib. O, ulu öndərin müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsində tarixi rolunu xüsusi qeyd edib.

Moldova Azərbaycanlıları Konqresinin rəhbəri Vüqar Novruzov ulu öndər Heydər Əliyevin dünya azərbaycanlıları diasporunun quruculuğunda əvəzsiz rolu və xidmətlərindən danışıb. O qeyd edib ki, hər bir xalqın tarixi və taleyində nadir insanlar olub. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də belə şəxsiyyətlərdəndir.



Daha sonra tarix elmləri doktoru Ruslan Şefçenko çıxış etmişdir. O, Heydər Əliyevin tarixi xidmətlərindən danışmış, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı gedən qanlı döyüşlərin Heydər Əliyevin yürütdüyü ağıllı və müdrik siyasət nəticəsində dayandırıldığını, Azərbaycan iqtisadiyyatının inkişafından, bir dövlət kimi dünya arenasında mühüm yer tutduğu barədə ətraflı danışmışdır.

Sonra Moldovada təhsil alan azərbaycanlı və xarici tələbələrin iştirakı ilə səfirlikdə “Heydər Əliyev - Azərbaycan dövlətinin banisi” adlı “dəyirmi masa” təşkil olunub. İştirakçılara Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən film nümayiş etdirilib. Gənclər xarici qonaqlara Heydər Əliyevin Azərbaycan xalqının tarixində rolu və xidmətləri barədə məlumat veriblər.

**Qədir ASLAN,**
**“Respublika”.**